# Narkomaniya ilə qətiyyətli mübarizə

***Hər bir ölkədə narkomaniyanın qarşısının alınması üçün çox ciddi təşkilati, profilaktik tədbirlər görülməli, lazımi izahat işi aparılmalı, səhiyyə, təbliğat orqanları narkomaniyanın insan üçün, bəşəriyyət, cəmiyyət üçün nə qədər təhlükəli, faciəli olduğunu hərtərəfli açıb göstərməli və insanları bu xəstəliyə qurşanmaqdan çəkindirməlidirlər.***
***ümummilli lider Heydər Əliyev.***

Müasir dünyada cəmiyyəti narahat edən problemlər içərisində ən mürəkkəbi, faciəvi nəticələrə gətirib çıxaranı narkomaniyadır. Narkomanlıq və narkotiklərin qanunsuz dövriyyəsi ən ciddi və təhlükəli qlobal problemlərdən biri olmaqla cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vurur, sosial-iqtisadi inkişafa mənfi təsir göstərir, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradır.

Mərkəzi sinir sisteminə spesifik təsir göstərən və tez bir zamanda asılılıq yaradan maddələrə narkotik maddələr deyilir. Narkotik "narke" sözündən götürülüb yunan dilindən tərcümədə mənası yuxu, bihuşluq deməkdir və "mania"- cəzb etmə, ağılsızlıq deməkdir. Narkotik maddələr ilk öncə tibbdə istifadə olunmağa başlamışdır. Bu elə bir maddədir ki, insan düşüncəsinə təsir edir və müəyyən mənada beyni tənzimləyir. Bu tənzimləmə hər cür psixoloji və fiziki deffektlərlə nəticələnə bilər. Bu o deməkdir ki, narkotiklər hissləri, əhval-ruhiyyəni, düşüncəni dəyişməyə qadirdirlər. Narkomanlıq-xroniki intoksikasiya doğuran, narkotik və psixotrop maddələrin sui-istifadəsi nəticəsində yaranan, psixi və fiziki asılılıqla müşayiət olunan xəstəlikdir. Narkotizmin ictimai təhlükəsi onun qeyri-qanuni təzahürünün əhalinin sağlamlığı əleyhinə yönəlməsilə ifadə olunur. İlk növbədə narkotik maddə qəbul edən şəxsin sağlamlığına, onun vasitəsilə isə ailəsinə, uşaqlarının sağlamlığına, bütövlükdə isə cəmiyyətin genefondunun gələcəyinə ziyan vurur, son nəticədə onu cəmiyyətin faydalı üzvləri sırasından çıxarır.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə, ölkəmizin regionda sosial və təhlükəsizlik siyasətinin prioritetlərindən olmuşdur. Hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" uğurla icra olunmaqdadır. Bu istiqamətdə aparılan işlərin səmərəliliyinin daha da yüksəldilməsi üçün müvafiq zəruri tədbirlər davam etdirilir.

Narkotizmlə və narkobiznesla mübarizə hər şeydən öncə ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin qorunması, cəmiyyətin sağlamlığının, dinclik və əmin-amanlığının mühafizəsi zərurətindən irəli gəlir. Son dövrlər hüquq-mühafizə orqanları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə işi gücləndirilmiş, narkotiklərin qeyri-qanuni daşınmasına qarşı birgə əməliyyatlar keçirilmiş, müxtəlif marşrutlar ilə narkotiklərin daşınması hallarının aşkarlanması üzrə məqsədyönlü iş davam etdirilmiş və cinayətkarlardan külli miqdarda narkotik vasitələr götürülmüşdür. Həmçinin, respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsinə, ictimai maarifləndirmə işinin əhatəsinin genişləndirilməsinə, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinə, beynəlxalq təcrübədən istifadə etməklə ixtisaslaşmış seminarların keçirilməsinə xüsusi diqqət yetirilmişdir.

Narkotizmlə və narkobizneslə mübarizədə regional və beynəlxalq əlaqələrin genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsi və elmi-texniki əməkdaşlığın inkişaf etdirilməsi səmərəli addımlardan biri hesab olunur. Belə əlaqələrin və əməkdaşlığın qloballaşması ilk növbədə müvafiq ölkənin özünün, bilavasitə, milli təhlükəsizliyinin təmin edilməsi baxımından əhəmiyyətlidir. Ölkəmiz narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində beynəlxalq və regional təşkilatlarla, həmsərhəd və digər dövlətlərlə sıx əməkdaşlıq münasibətləri qurmuşdur. Azərbaycan Respublikası BMT-nin "Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyası"na, "Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası"na, "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il Konvensiyası"na qoşulmuş və bir sıra ölkələrlə əməkdaşlıq sazişləri imzalamışdır. BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və onun Mərkəzi Asiya üzrə Regional Ofisi ilə Azərbaycan Respublikasının dövlət qurumları arasında mövcud olan əməkdaşlıq çərçivəsində, ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsinə və narkotik vasitələrdən asılılığa qarşı mübarizə tədbirlərinin həyata keçirilməsinə müvafiq dəstək göstərilməkdədir.

Ümummilli lider Heydər Əliyev Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək, 1996-ci il avqustun 26-da "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri haqqında" müvafiq fərman imzalamış, 1997-ci il tarixdə BMT-nin Yaxın və Orta Şərqdə Narkotiklərin Qanunsuz Dövriyyəsinə Nəzarət üzrə Yardımcı Komissiyasının 32-ci sessiyasında çıxış edərək Azərbaycan Respublikasının bu problemin həllində ardıcıl addımlar atacağını və dünya ictimaiyyəti ilə bu məsələdə bir yerdə olacağını bir daha bəyan etmişdir.

Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizənin real vəziyyətə uyğun qurulması, polis orqanlarının aidiyyəti struktur qurumlarının işinin düzgün koordinasiyası və yerlərə idarəçilik təsirinin artırılması məqsədi ilə respublika ərazisində narkotiklə bağlı kriminogen vəziyyət mütəmadi olaraq təhlil edilərək, respublika ərazisində narkotiklərlə bağlı cinayətlərin aşkar edilməsi, həmin cinayətləri törədən şəxslərin və mütəşəkkil dəstələrin ifşa olunması və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələrin çıxarılması üçün ciddi dönüş yaradılması istiqamətində məqsədyönlü tədbirlər davam etdirilir. Bir sözlə, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və ölkə Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət mərkəzində olan narkomaniyaya qarşı mübarizə tədbirləri uğurla həyata keçirilir.

**Nərmin AĞAYEVA,**
**Qəbələ rayon prokurorunun köməkçisi, III dərəcəli hüquqşünas.**

# Bayram tədbiri

Qəbələ Rayon Mərkəzi Xəstəxanasında 8 Noyabr - Zəfər Günü ilə əlaqədar tədbir keçirilmişdir. Tədbirdə torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhadətə yüksəlmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra çıxış edən müəssisənin direktoru Ceyhun Əhmədov erməni silahlı qüvvələrinin təcavüzünə cavab olaraq başlayan Vətən müharibəsində qazanılmış qələbədən, xalqın ölkə prezidenti İlham Əliyevin ətrafında yumruq kimi birləşməsindən danışmış, vətən uğrunda canından keçmiş şəhidlərə rəhmət, ailələrə səbr diləmiş, qazilər və müharibə iştirakçılarına can sağlığı arzulamışdır. Tədbirdə çıxış edənlər 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətdən, qazanılan böyük Qələbənin əhəmiyyətindən danışmış, şəhidlərin əziz xatirəsinin ürəklərdə daim yaşayacağını vurğulamışlar.





# Noyabr ayının tarixi yaddaşı

**Televiziya və Radio İşçiləri günü**

1895-ci ildə rus fiziki A.S.Popov radioqəbuledici və radioötürücü icad etmişdir. Avropada isə radionun kəşfi İtalyan alimi Qulyelmo Markoniyə aid edilir.

Televizorun (yunanca "tele"-uzaqlıq, latınca "vizor"-görmə sözlərindəndir) ixtirası isə bir qədər sonraya-XX əsrin 20-30-cu illərinə təsadüf edir.Avropada isə yalnız 50-ci illərdə geniş yayılmağa başladı.

Azərbaycanda radionun tarixi XX əsrin 20-ci illərindən başlayır.Bakıda ilk radio qurğusu 1924-cü ildə quraşdırılmışdır.1926- cı ildə isə ilk radiostansiya fəaliyyətə başlamışdır..O dövrdə radio verilişlərinin gündəlik efir vaxtı cəmi 2 saat təşkil edirdi.Sonradan bu vaxt 4 saata, daha sonra 6 saata çatdı.

Azərbaycanda hər il noyabrın 6-sı Radio və Televiziya İşçilərinin peşə bayramı günü kimi qeyd olunur.

**Azərbaycanın Dövlət Bayrağı Günü**

Azərbaycan respublikasının rəsmi simvollarından (himn və gerblə birlikdə) biri olan bayraq ilk dəfə 9 noyabr 1918-ci ildə müsəlman şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası tərəfindən təsdiq edilmişdir.

Azərbaycan respublikasının rəsmi simvollarından (himn və gerblə birlikdə) biri olan bayraq ilk dəfə 9 noyabr 1918-ci ildə müsəlman şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası tərəfindən təsdiq edilmişdir. 1991-ci il oktyabrın 18-də "Azərbaycan respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən dövlət bayrağını bərpa etmişdir.

Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan (yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir) ibarətdir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın göy rəngi türkçülüyü, qırmızı müasir azadlıq ideologiyasını, yaşıl rəng isə İslamı tərənnüm edir.

Azərbaycan respublikasının prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 18-də imzaladığı sərəncamla 9 noyabr tarixi Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd olunur.

**Konstitusiya günü**

"Konstitusiya" latın sözü olub quruluş, təsisat mənasını verir. Dövlətin ali hüquqi qüvvəyə malik olan əsas qanunlar məcəlləsi belə adlanır.

Müasir dövlətlərin çoxunun konstitusiyası var.Konstitusiyası olmayan dövlətlərdə isə idarəetmə adət-ənənələrə, dini qaydalara əsaslanır.

İndiyədək qəbul edilmiş Konstitusiyalarımız:

Azərbaycan Xalq Cümhuriyyəti Konsitusiya qəbul etməsə də Milli Şurada qəbul edilmiş İstiqlal Bəyannaməsi onu əvəz edirdi.

Azərbaycan SSR dövründə qəbul edilmiş Konstitusiyualar:

1)1921-ci il, 19 may,
2)1937-ci il, 14 mart,
3)1978-ci il, 21 aprel.

1995-ci il noyabrın 12-də Azərbaycan xalqı referendum yolu ilə öz dövlətinin Əsas Qanununu - Konstitusiyasını qəbul etdi. Bu Konstitusiya müstəqilliyini bərpa etmiş Azərbaycan dövlətinin ilk milli konstitusiyasıdır.Konstitusiyamıza 2 dəfə dəyişiklik edilib-2002ci il, 24 avqust və 2009-cu il, 18 martda.

**Ümumdünya Diabet Günü**

14 noyabr-Ümumdünya Diabet Gününün təsis olunması həkim Frederik Bantiçin adı ilə bağlıdır.O,1921-ci ilin oktyabrında öz tələbəsi Çarlz Bestlə birlikdə ilk dəfə şəkərli diabetxəstəliyinin müalicəsi üçün insulin preparatını kəşf etmişdir.14 noyabr bu böyük alimin doğum günüdür.Məhz onun şərəfinə Beynəlxalq Diabet Federasiyasının (İDF) və Ümumdünya Səhiyyə Təşkilatının (WNO) qərarına əsasən 14 noyabr 1991-ci ildən etibarən Ümumdünya Diabet Günü kimi qeyd olunur.

**Milli Dirçəliş Günü**

1988- ci il noyabrın 17-də xalq Bakı şəhərində Azadlıq meydanına axışmaqla 70 il Azərbaycanı müstəmləkə əsarətində saxlayan Sovet imperiyasına qarşı ilk kütləvi etiraz səsini qaldırdı.Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində başlamış erməni separatizmini və terrorunu dəsdəkləyən bir rejimə qarşı kütləvi xalq hərəkatı məhz 17 noyabrda başlandı.Həmin gün Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün dünyaya sübut etdi ki, o, azad olmağa layiq xalqdır.